# BÖYÜK QƏLƏBƏNİN AÇARI

*(Əvvəli ötən saylarımızda)*

Amma mötəbər məclislərin birində bir nəfər mənə belə bir sual verdi, sən istərdinmi ki, indiki cavanlar, həyatda məhz sənə oxşamağa çalışsınlar?

Dedim ki, yox, əgər onlar mənə bənzəməyə çalışsalar cəmiyyətdə durğunluq olar, irəliləyiş zəifləyər, qoy onlar məndən də irəliyə getməyi bacarsınlar. Bu gözəl kitabın müəllifi, əziz dostum Ziyad müəllim haqda onu deyə bilərəm ki, maşallah olsun, bu kişi yazıb-yaratmaqdan, gecə-gündüz çalışmaqdan yorulmaq bilinir. Bilmirəm, bundan sonra daha nə yazacaq, amma onu dəqiq bilirəm ki, bir gün də bekar qalmayacaq və yazmağa nəsə yeni bir şey tapacaq. Bəzən fikirləşirəm ki, Ziyad müəllim geoloq, yaxud neftçi olsaydı, yeni kifayət qədər zəngin neft-qaz yataqları tapıb aşkara çıxarardı. Dəniz çox böyük olduğu üçün orda hələ aşkara çıxarılmamış çoxlu yataqlar mövcuddur. Əlbəttə ki, bir adamın təkbaşına bu kitabı ərsəyə gətirməsi bir az absurd görünərdi. Şübhəsiz ki, başçılıq etdiyi kollektiv bu işdə ona yardımçı olub. Mən onun özünə də, çətin, gərəkli fəaliyyətində ona yardımçı olan kollektiv üzvlərinə də uzun ömür, can sağlığı arzu edirəm. Bir dəfə Ziyad müəllimlə Neft Daşlarından Bakıya qayıdırdıq. Vertolyot ekipajının komandirini çağırıb göstəriş verdim ki, vertolyotu Buzovnada saxlayarsan, Ziyad müəllim düşər. Ziyad tez qayıtdı ki, yox, mən orda düşən deyiləm. Şübhəsiz ki, bu bir zarafat idi və vertolyotu Buzovnaya endirmək mümkün deyil. Mənim doğulduğum Pirşağı kəndi ilə Buzovna yaxın olduğu üçün biz də bu şəkildə dostbazlıq, qohumbazlıq edirik.

**Millət Vəkili Fəttah Heydərov:** - Çox hörmətli məclis iştirakçıları, bu cür hərarətli, poetik çıxışlardan sonra danışmaq mənim üçün çox çətin olacaq və elə buna görə də fikrimi qısa şəkildə ifadə etməyə çalışacağam. Müstəqil Azərbaycanımızın son bir əsrlik tarixi ərzində neft amilinin ölkəmizin tarixi taleyində hansı rolu oynaması barədə bu gün bu məclisdə çox qiymətli fikirlər söyləndi. Böyük Vətən müharibəsi başlayarkən cəmi 3 yaşım olmasına baxmayaraq o çətin dövrün hadisələrini də, Böyük Qələbənin qazanıldığı tarixi günü indi yaxşı xatırlayıram.O qələbə təkcə bizim yox, insanlığın, mütərəqqi bəşəriyyətin şərin, rəzalətin üstündə qazandığı böyük Qələbə idi və bu Qələbənin əldə olunmasında bizim Bakı nefti həlledici rol oynadı. O ağır,çətin illərə Azərbaycan insanının qazandığı tarixi fədakarlıq nümunələri barədə hələ bundan sonra da çox deyiləcək,çox yazılacaq. Düzdür, müharibə başa çatanda mən birinci sinifdə oxuyurdum, amma Bakıda emal olunan neftin iyi, qoxusu o vaxt yaşadığım Naxçıvan torpağına da, mənim burnuma da gəlib çıxmışdı. Koveroçkin öz həyatını fəlakətlər qoynunda qeyb etdi ki, onun ətrafında çalışan insanların bir neçəsi isə məhz bizim kəndin sakinləri idi.Bu gün neft haqqında danışarkən biz xüsusi şəkildə qeyd etməliyik ki, Ziyad müəllimin bu ağır zəhmətini mən tarixi şücaət adlandırardım. Burda elə vacib tarixi həqiqətlər şərh olunub ki, bu həqiqətlərin dolğun şəkildə gələcək nəsillərə çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Məndən bir az əvvəl bu məclisdə gəncliyimizin fəal, istedadlı nümayəndəsi, bizim deputat həmkarımız Fuad Muradov çox gözəl, çox mənalı bir çıxış elədi. Gəncliyimizin fəaliyyətinə, cəmiyyətdəki mövqeyinə dodaq büzənlərdən fərqli olaraq deməliyəm ki, Fuad Muradov kimi çalışqan, alicənab insanların simasında təmsil olunan gəncliyimiz son dərəcə saf, duru, pak mənbələrdən mayalanır. Elə bu səbəbdən də onlar yaxın gələcəkdə bizim nəsli yüksək səviyyədə təmsil etməyə və cəmiyyətin,Vətənin taleyi üçün birbaşa məsuliyyət daşımağa qadirdir. Ziyad müəllim kimi yüksək zəkalı, dərin savadlı insanların yazıb araya gətirdiyi bu cür dəyərli kitablara bu gün cəmiyyətdə, ziyalı zümrəsi arasında böyük ehtiyac duyulur. Yaxşı olan hər şeyə dərin maraq bəsləyən çalışqan tələbələrimiz də bu cür əsərləri su kimi içməyə, ruhuna, varlığına hopdurmağa çalışır. Biz bu dəyərli əsərin rus dilində çap olunmuş variantını yüksək səviyyədə təşkil edilmiş müzakirəsində iştirak etdik və orda da böyük könül xoşluğu ilə öz fikrimizi söylədik və nə yaxşı ki, indi bu kitab Azərbaycan dilində, belə nəfis formada çap olunub. Dövlət kitabxanalarına və tədris ocaqlarına məxsus olan kitabxanalara paylamaq yolu ilə bu cür ensiklopedik bilgilər verən dəyərli kitabları ümumxalq malına, millətin mənəvi sərvətinə çevirmək mümkündür. Ulu öndərimiz ilk dəfə hakimiyyət başına gələndə mən siyasi fəaliyyətdə idim və vilayət partiya komitəsində təlimatçı kimi çalışırdım. Çox yaxşı yadımdadır, Moskvadan və digər xarici ölkələrdən vətənimizə təşrif buyuran qonaqlar o zaman bizdə hökm sürən geriliyi, ətaləti görüb narahat olurdular. Ulu öndər bütün bunları gözəl dərk edirdi və bu səbəbdən də məhz onun təşkilatçılığı sayəsində az müddət ərzində təhsil,iqtisadiyyat,mədəniyyət və digər sahələrdə köklü dəyişikliklər əldə olundu. Qazanılan böyük uğurlarda sözsüz ki, neft amilinin də böyük rolu oldu. Nəticədə isə çiçəklənməkdə olan Azərbaycanımız on beş müttəfiq respublika arasında utanc gətirən gerilikdən qurtularaq ön sıralara çıxdı. Kənd təsərrüfatında yeni suvarma qurğuları yaratmaq yolu ilə indiyə kimi görünməmiş uğurlara imza atıldı. Təsəvvür edin ki, hələ o zaman bizdə 2 milyon ton üzüm bir milyon ton pambıq istehsal olundu ki, bu günün özündə belə həmin göstəricilər bizim üçün əlçatmaz görünür. Məhz bu uğurlar, o cümlədən neftdən gələn gəlirlərin bir qismini respublikanın ümumi tərəqqisinə cəlb etməklə Bakımız da dünyanın ən gözəl şəhərlərindən birinə çevrildi. Təsadüfi deyil ki,Ulu Öndərimiz ikinci dəfə hakimiyyət olimpinin zirvəsinə gəldikdən sonra elə bir incə,müdrik siyasət yeritməyə başladı ki,Azərbaycan nefti dar mənada deyil,ən geniş və əhatəli şəkildə insanlarımızın ümumi rifahına xidmət etməyə başladı.Təsəvvür edin ki,bu gün Bakının Xətai kimi bir rayonunda həyata keçirilən tikinti quruculuq işlərinin ümumi miqyası Gürcüstan və Ermənistan kimi ölkələrdə gerçəkləşən quruculuq tikinti işlərinin ümumi həcmindən böyükdür.Təsəvvür edin ki,işğalçılıq siyasətindən kor-koranə yapışdığı üçün bu gün bərbad kökə düşmüş Ermənistan dövləti tədricən dağılmağa və yer üzündən silinməyə məhkumdur. Bilavasitə sürətli inkişafımıza xidmət edən bu cür dəyərli əsərləri yazıb ortaya qoyan Ziyad Səmədzadəyə bundan sonrakı fəaliyyətində də yeni-yeni sənət sevincləri arzu edirəm.

*(Davamı olacaq)*



***Bayram AFURCALI,***
***publisist-fotoqraf***